Bureau 28a

# HÜQUQİ YENİLİKLƏR *

# TOPLUSU

©2023 "Bureau 28a" MMC

www.bureau28a.com

# AML VƏ CFT REJİMİNƏ KÖKLÜ DƏYİŞİKLİK EDƏN YENİ QANUNVERİCİLİK




FEVRAL, 2023

*Cinayət Yolu ilə Əldə Edilmiş Əmlakın Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə haqqında* 30 dekabr 2022-ci il tarixli 781-VIQ saylı Azərbaycan Respublikasının Qanunu 31 yanvar 2023-cü il tarixində dərc edilmişdir. Maliyyə Monitorinqi Xidmətinin müəyyənləşdirəcəyi minimum həddən artıq məbləğdə maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatları barədə məlumat verilməsi ilə bağlı öhdəlik istisna olmaqla, Çirkli Pulların Yuyulması (AML) və Terrorçuluğun Maliyyələşdirilməsinə (CFT) qarşı yeni Qanun 1 fevral 2023-cü il tarixindən qüvvəyə minir. Yeni Qanun *Cinayət Yolu ilə Əldə Edilmiş Pul Vəsaitlərinin və ya Digər Əmlakın Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə haqqında* 10 fevral 2009-cu il tarixli, 767-IIIQ saylı Qanunu əvəz edir.

Yeni AML və CFT Qanunu maliyyə institutları kimi aşağıdakıları sadalayır:

- kredit təşkilatları
- həyatın yığım sığortası fəaliyyəti ilə məşğul olan yerli və xarici sığortaçılar, təkrarsığortaçılar və sığorta vasitəçiləri
- investisiya şirkətləri
- investisiya fondları, bu fondların idarəçiləri
- xarici investisiya fondlarının nümayəndəlikləri
- mərkəzi depozitar
- poçt rabitəsinin milli operatoru
- lombardlar
- maliyyə lizinqi xidmətləri göstərən şəxslər
- virtual aktiv xidməti təminatçıları və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər

Aşağıda qeyri-maliyyə institutları və peşə sahibləri sadalanır:

- rieltorlar
- vəkillər
- notariuslar
- hüquq, mühasibat və vergi məsləhəti xidmətləri göstərən müstəqil şəxslər, belə xarici hüquqi şəxslərin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri

Həm maliyyə institutları, həm də qeyri-maliyyə institutları və peşə sahibləri yeni AML və CFT Qanununa əsasən öhdəlik daşıyan (hesabat verən) şəxslərdir.

Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə və Yayılmasının Maliyyələşdirilməsinə Qarşı Mübarizə üzrə Beynəlxalq Standartlara uyğun olaraq *Hədəfli Maliyyə Sanksiyaları haqqında* 782-VIQ saylı Qanun qüvvəyə minmişdir. Yeni AML və CFT Qanunu kimi, Hədəfli Maliyyə Sanksiyaları (TFS) haqqında Qanun 30 dekabr 2022-ci il tarixlidir və 31 yanvar 2023-cü il tarixində dərc edilməklə 1 fevral 2023-cü il tarixində qüvvəyə minmişdir.

Yeni AML və CFT qanunvericiliyinin tətbiqini genişləndirmək üçün Mülki və Cinayət Prosessual Məcəllələrinə dəyişikliklər edilmişdir. Mülki Prosessual Məcəllədən artıq TFS Qanununun bir hissəsi olan terrorçuluğun maliyyələşdirilməsi üçün istifadə edilən aktivlərin dondurulması üçün müraciət proseduru çıxarılmışdır. Cinayət Prosessual Məcəlləsinə terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə çərçivəsində sanksiyalara məruz qalan şəxslərin və qurumların ölkədaxili siyahısına daxil edilməsi prosedurları əlavə edilmişdir.

AML və CFT qanunvericiliyinə yenidən baxılmanın bir hissəsi kimi, Cinayət və Mənzil Məcəllələrinə, İnzibati Xətalar Məcəlləsinə, Valyuta Tənzimi, Hüquqi Şəxslərin Qeydiyyatı və Dövlət Reyestri, Banklar, Sığorta Fəaliyyəti, İnvestisiya Fondları, və Qiymətli Kağızlar Bazarı haqqında Qanunlara texniki və semantik dəyişikliklər edilmişdir.

Yeni AML və CFT Qanununa əsasən yüksək riskli zonalara mötəbər AML və CFT mənbələrinin qiymətləndirilməsinə görə adekvat AML və CFT mexanizmi olmayan, silahlı separatizmi, ekstremizmi, muzdluluğu və terror fəaliyyətini dəstəkləyən, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumat və sənədlərinin açıqlanmasını tələb etməyən və beynəlxalq təşkilatlar tərəfindən barəsində sanksiyalar və ya digər analoji tədbirlər tətbiq edilən dövlətlər və ya ərazilər daxildir.

Nazirlər Kabinetinin 20 fevral 2023-cü il tarixli 64 saylı Qərarında Maliyyə Monitorinqi Xidməti və öhdəlik daşıyan şəxslər tərəfindən yüksək riskli zonalara münasibətdə həyata keçirilə biləcək xüsusi KYC yoxlamaları, lisenziyanın verilməməsi, təsərrüfat və maliyyə əməliyyatlarının məhdudlaşdırılması kimi məhdudiyyət və xüsusi tədbirlər öz əksini tapmışdır.

Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti 2023–2025-ci illər üzrə AML və CFT dair Milli Fəaliyyət Planını təsdiq etmişdir.

# D-ÖT QANUNU



Azərbaycan Respublikasının, *Dövlət-Özəl Tərəfdaşlığı haqqında*, 691-VIQ sayılı 9 dekabr 2022-ci il tarixli Qanunu 27 dekabr 2022-ci ildən qüvvəyə minmişdir. Qanun tərəfdaşlığın tənzimlənməsini, bütün dövlət-özəl layihələri üçün çərçivə yaradaraq, genişləndirir. Yeni Qanunun qüvvəyə minməsi ilə əvvəlki tənzimləyici aktlar, ən əsası:

- tik-idarə et-təhvil ver (TİT/BOT) modelini dövriyyəyə daxil edən, *Tikinti və İnfrastruktur Obyektləri ilə Əlaqədar İnvestisiya Layihələrinin Xüsusi Maliyyələşmə Əsasında Həyata Keçirilməsi haqqında*, 2016-cı il tarixli Qanun, və
- *Tikinti və İnfrastruktur Obyektləri ilə Əlaqədar İnvestisiya Layihələrinin İnvestorlar tərəfindən "Tik-İdarə Et-Təhvil Ver" Modeli Çərçivəsində Həyata Keçirilməsinin Şərtləri, Tikinti və İnfrastruktur Obyektlərinin Növlərinə Uyğun Olaraq İnvestorlar qarşısında Qoyulan Tələblər, Bağlanılan Müqavilələrin Xüsusiyyətləri və Şərtləri, İnvestisiya Qoyuluşu Nəticəsində Əldə Olunacaq Mal və Xidmətlərin Dəyərinin Müəyyənləşdirilməsi Qaydasının Təsdiq Edilməsi haqqında* Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli Fərmanı qüvvəsini itirmişdir.

Dövlət-özəl tərəfdaşlığı (D-ÖT) dövlət xidmətlərinin göstərilməsinə, eləcə də həmin xidmətlərin göstərilməsi ilə bağlı infrastrukturun yaradılmasına və idarəedilməsinə dair müqaviləyə əsaslanan dövlət tərəfdaşı ilə özəl tərəfdaşın birgə fəaliyyətidir. Dövlət tərəfdaşı dövlət orqanları (qurumları), habelə bələdiyyələr və ya bələdiyyə müəssisələridir. Özəl tərəfdaş isə fiziki və ya hüquqi şəxsdir.

Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici iddiaçıların və ya müəyyən ölkələrdən olan xarici iddiaçıların müsabiqədə iştirak etməsinə, özəl təşəbbüs qaydasında təklif verməsinə və ya D-ÖT layihəsi üzrə birbaşa danışıqlarda iştirak etməsinə məhdudiyyətlər qoyula bilər. Xarici tərəfdaşlarla, habelə onların nəzarət etdiyi şəxslərlə, və ya xarici və ya beynəlxalq maliyyəçiləri əhatə edən D-ÖT müqavilələri xarici yurisdiksiya hüququ ilə tənzimlənə bilər.

Qanun, səlahiyyətli orqan, İqtisadiyyat Nazirliyi, anlayışını təqdim edir. Nazirlik Respublikanın hər D-ÖT layihəsində iştirakı forma və metodlarını müəyyən edir. Orqan həmçinin dövlətin D-ÖT modeli əsasında inkişaf etdirmək nəzərdə tutduğu D-ÖT layihələrinin illik siyahısını Nazirlər Kabinetinin təsdiqi üçün hazırlayır.

D-ÖT layihəsi səlahiyyətli orqan tərəfindən elan edilir. Maraqlı tərəflər təkliflərini müsabiqə şərtləri sənədlərinə əsasən elana cavab olaraq təqdim edir. İddiaçılar müsabiqədə iştirak məqsədi ilə aralarında birgə fəaliyyət qura bilər.

Layihə təklifləri aşağıdakı meyarlara əsasən qiymətləndirilir:

- dövlət tərəfdaşı tərəfindən özəl tərəfdaşa ediləcək ödənişlərin məbləği və bunların D-ÖT müddətində bölüşdürülməsi;
- özəl tərəfdaşa verilən dövlət dəstəyi və təminatların məbləği və səviyyəsi;
- layihənin icra müddəti özəl tərəfdaş tərəfindən təklif edildiyi halda D-ÖT müddəti;
- D-ÖT layihəsinin icrası zamanı gözlənilən nəticələr və müqavilə öhdəliklərinin yerinə yetirilməməsinə görə dəymiş zərərin ödənilməsi;
- layihə təklifinin texniki, estetik-funksional, innovativ xassələri; və
- iddiaçı tərəfindən risklərin qarşısını almaq üçün təklif olunan tədbirlər.

İstənilən layihənin xüsusi müddəti səlahiyyətli orqan tərəfindən müəyyən edilməklə, D-ÖT layihəsi 49 il müddətindən artıq olmayaraq həyata keçirilir. Orqan həmçinin layihə şirkətində dövlət tərəfdaşının iştirakına dair qərar verir – bu iştirak şirkətin nizamnamə kapitalının 49 faizini keçməməlidir.

Özəl tərəfdaş müsabiqə şərtlərində müəyyən edilən təminatlara arxalana bilər: (a) D-ÖT layihəsinin həyata keçirilməsi üçün mal, material, xammal, avadanlığın verilməsinin təşkili; (b) D-ÖT layihəsinin gəlirlərinin minimum səviyyəsinə təminat; (c) D-ÖT layihəsi çərçivəsində istehsal edilən məhsulların, göstərilən xidmətlərin, görülən işlərin müəyyən həcmdə alınmasına dair təminat; (d) subsidiyaların və (və ya) kreditlərin verilməsi, kapital qoyuluşu; (e) tənzimlənən qiymətlərin Asəviyyəsinə dair təminat; (f) Azərbaycan Respublikasının ərazisi və ya onun bir hissəsində xidmətlərin göstərilməsi, işlərin görülməsi, məhsulun satışı üzrə müvəqqəti olaraq müstəsna hüquqların verilməsi; və (g) D-ÖT müqaviləsində nəzərdə tutulan hallarda, özəl tərəfdaşın çəkdiyi xərclərin və əldən çıxmış faydanın əvəzinin ödənilməsi.

D-ÖT müqaviləsinin bağlandığı tarixdən sonra Azərbaycan Respublikasının normativ hüquqi aktlarında edilən dəyişikliklər özəl tərəfdaşın D-ÖT müqaviləsi üzrə xərclərinin artmasına və ya əldə edəcəyi gəlirin azalmasına səbəb olduqda, özəl tərəfdaşa kompensasiya ödənilir. Ödəniləcək kompensasiyanın məbləği D-ÖT müqaviləsində müəyyən edilə bilər.

Maliyyələşməni əldə etmək üçün özəl tərəfdaş layihə kreditorlarına təminat təklif edə bilər. Dövlət payı (səhmləri) üzərində yüklülüyün yaradılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə götürdüyü öhdəliklər nəzərə alınmaqla həyata keçirilə bilər. Kreditorlarla birbaşa müqavilədə nəzərdə tutulduğu halda, yüklülüyə tutma yönəldilərkən, səlahiyyətli orqan yüklü edilmiş əmlakı satınalmaqda üstünlük hüququna malik ola bilər.

D-ÖT müqaviləsi ləğv edildikdə və ya ona xitam verildikdə özəl tərəfdaşın yaratdığı infrastruktur özəl tərəfdaşın mülkiyyətində qala və ya dövlət tərəfdaşının mülkiyyətinə keçə bilər. Dövlət tərəfdaşı özəl tərəfdaşın yaratdığı infrastrukturu sonuncudan satın almaqda üstünlük hüququna malik ola və ya belə öhdəlik daşıya bilər. Dövlətin infrastrukturu özəl tərəfdaşın mülkiyyətinə verilə bilər və ya özəl tərəfdaş onun idarəetməsinə verilmiş infrastrukturu dövlətdən satın almaqda üstünlük hüququna malik ola bilər.

Dövlətə aid torpaq özəl tərəfdaşa icarə və ya istifadə hüququ ilə təqdim edilir, habelə layihə şirkətinin kapitalına qoyula bilər. D-ÖT layihəsi üçün zəruri bələdiyyə və özəl torpaqlar dövlət tərəfindən alına və ya icarəyə götürülə bilər

# VERGİ OFŞORLARI, YENİLƏNMİŞ SİYAHI




2023-cü ildən, Azərbaycan Respublikasının Vergi Məcəlləsi güzəştli vergi tutulan xarici ölkə və əraziləri aşağıdakı kimi müəyyən edir:

- vergi dərəcəsi Məcəllədə müəyyən edilmiş dərəcənin 75 faizi və ya daha aşağı (əvvəlki iki dəfə və ya daha aşağıdan fərqli olaraq) hissəsinə bərabər olan ölkələr və ya ərazilər;
- Azərbaycan Respublikası ilə beynəlxalq müqavilələr çərçivəsində müvafiq standartlara uyğun məlumat mübadiləsini aparmayan ölkələr və ya ərazilər; və (və ya)
- maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkələr və ya ərazilər.

Respublika Prezidenti, 18 mart 2023-cü il tarixli 2070 sayılı Fərmanı ilə vergi ofşorları siyahısını yeniləmişdir. Fərman, Prezidentin 2017-ci il 11 iyul tarixli 1505 sayılı Fərmanın təsdiq etdiyi ilkin siyahıya dəyişikliklər edir. Bundan əvvəl, 2019-cu ildə, siyahıya Prezidentin 11 iyun tarixli 724 sayılı Fərmanı ilə dəyişiklik edilmişdir. 2023-cü il Fərmanının siyahısı, əksəriyyəti ilkin və ya dəyişiklik edilmiş siyahılardan köçmüş digərləri isə ilkin siyahıdan bərpa və ya əlavə edilərək, 47 ölkə və ərazini daxil edərək üç siyahının ən dolğunudur.
Üç Fərmana əsasən dəyişiklikləri əks etdirən ilkin, dəyişiklik edilmiş, və ən son olaraq qəbul edilmiş yenilənmiş siyahılar aşağıdakılardır (firuzəyi rəngli qalın şrift silinməni, qırmızı qalın şrift daxil edilməni, adi şriftdəki ölkə və ərazilər isə yeniliyin olmadığını ifadə edir):

| | İyul 2017-ci İlki İlkin Siyahı | İyun 2019-cu İlki Dəyişiklik Edilmiş Siyahı | Hal-Hazırkı, Mart 2023-cü İlki, Siyahı |
|---|---|---|---|
| 1 | Andorra | Andorra | Andorra |
| 2 | Anqila | Anqila | Anqila |
| 3 | Antiqua və Barbuda | Antiqua və Barbuda | Antiqua və Barbuda |
| 4 | Aruba | Aruba | Aruba |
| 5 | Antil Adaları (Niderland) | - | - |

| | | | |
|---|---|---|---|
| 6 | Baham adaları | Baham adaları | Baham adaları |
| 7 | Barbados | Barbados | Barbados |
| 8 | Bəhreyn Krallığı | - | Bəhreyn Krallığı |
| 9 | Beliz | Beliz | Beliz |
| 10 | Bermuda | Bermuda | Bermuda |
| 11 | Britaniya Vircin adaları | Britaniya Vircin adaları | Britaniya Vircin adaları |
| 12 | - | - | Bruney-Darüssalam |
| 13 | Cersi | Cersi | Cersi |
| 14 | Cəbəlüttariq | Cəbəlüttariq | Cəbəlüttariq |
| 15 | Dominika | Dominika | Dominika |
| 16 | - | Fici | Fici |
| 17 | Honq-Konq (Çin) | Honq-Konq (ÇXR) | Honq-Konq (ÇXR) |
| 18 | - | Kabo Verde | Kabo Verde |
| 19 | Kayman adaları | Kayman adaları | Kayman adaları |
| 20 | Kosta-Rika | - | - |

| | | | |
|---|---|---|---|
| 21 | Kuk adaları | Kuk adaları | Kuk adaları |
| 22 | - | - | Qəmər Adaları İttifaqı |
| 23 | - | - | Labuan (Malayziya) |
| 24 | Qernsi | - | Qernsi |
| 25 | Qrenada | Qrenada | Qrenada |
| 26 | Liberiya | Liberiya | Liberiya |
| 27 | Lixtenşteyn | Lixtenşteyn | Lixtenşteyn |
| 28 | Makao (Çin) | - | Makao (ÇXR) |
| 29 | Maldiv adaları | Maldiv adaları | Maldiv adaları |
| 30 | Marşal adaları | Marşal adaları | Marşal adaları |
| 31 | - | - | Mavriki |
| 32 | Men adası | _ | Men adası |
| 33 | Monako | Monako | Monako |
| 34 | Montserrat | Montserrat | Montserrat |
| 35 | Nauru | - | Nauru |
| 36 | Niue | Niue | Niue |

| | | | |
|---|---|---|---|
| 37 | Palau | Palau | Palau |
| 38 | Panama | Panama | Panama |
| 39 | Samoa | Samoa | Samoa |
| 40 | Sent Lusiya | Sent Lusiya | Sent Lusiya |
| 41 | Sent Vinsent və Qrenadin | Sent Vinsent və Qrenadin | Sent Vinsent və Qrenadin |
| 42 | Seyşel Adaları | - | Seyşel Adaları |
| 43 | Sent-Kits və Nevis | Sent-Kits və Nevis | Sent-Kits və Nevis |
| 44 | - | Tailand | Tailand |
| 45 | - | Tayvan (ÇXR) | Tayvan (ÇXR) |
| 46 | Törks və Kaykos adaları | Törks və Kaykos adaları | Törks və Kaykos adaları |
| 47 | - | Trinidad və Tobaqo | Trinidad və Tobaqo |
| 48 | Vanuatu | Vanuatu | Vanuatu |
| 49 | Vircin adaları (ABŞ) | Vircin adaları (ABŞ) | Vircin adaları (ABŞ) |

Siyahıdakı ölkə və ya ərazilərdə təsis edilmiş (qeydiyyatdan keçmiş) şəxslərə, o cümlədən onların digər ölkələrdə olan filial və ya nümayəndəliklərinə, habelə güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə olan bank hesablarına vergi orqanında uçotda olmayan rezident fiziki şəxslər daxil olmaqla rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısilə ödənişlər Azərbaycan mənbəyindən gəlir hesab edilərək vergiyə cəlb edilir.

# ELEKTRİK ENERJİSİ BAZARININ ƏSASI QOYULUB



*Elektroenergetika haqqında* Azərbaycan Respublikasının 11 aprel 2023-cü il tarixli 858-VIQ saylı Qanunu, 19 may 2023-cü il tarixində dərc edilərək 2024-cü ildən qüvvəyə minir.

Qanun üç mərhələdə tətbiq ediləcək:

- ilkin olaraq, Qanunun qüvvəyə mindiyi tarixdən, 1 yanvar 2024-cü il, 30 iyun 2025-ci il tarixinə qədər, digərlərlə bərabər, elektrik enerjisinin istehsalı və ötürülməsi fəaliyyəti hüquqi və idarəçilik nöqteyi-nəzərindən ayrılacaqdır;

- ikinci mərhələdə, 1 iyul 2025-ci il tarixindən 30 iyun 2028-ci il tarixinə qədər, digərlərlə bərabər, bazar operatoru (ötürücü sistem operatorunun tabeliyində ayrıca hüquqi şəxs) yaradılacaq, elektrik enerjisinin paylanması və təchizatı fəaliyyətləri hüquqi və idarəçilik nöqteyi-nəzərindən ayrılacaq, və bazar operatoru tərəfindən bütün istehsalçılardan (hal-hazırda qüvvədə olan *Elektrik Enerjisi İstehsalında Bərpa Olunan Enerji Mənbələrindən İstifadə haqqında* Qanununa uyğun olaraq, elektrik enerjisini zəmanətli alıcıya satan istehsalçılar istisna olmaqla) elektrik enerjisinin alınması tətbiq ediləcəkdir; və
- nəhayət, 1 iyul 2028-ci il tarixindən başlayaraq, müstəqil bazar operatorunun fəaliyyəti kimi, Qanunun elektroenergetika sahəsində tam tənzimlənən bazar üçün nəzərdə tutduğu şərtlərin tətbiqinə keçiriləcək.

Bu yekun mərhələdə, elektrik enerjisinin topdansatış və pərakəndə bazarları yaradılacaqdır. Topdansatış bazarı: (i) ikitərəfli müqavilələr bazarı, (ii) mərkəzləşdirilmiş bazar, (iii) balanslaşdırıcı bazar, və (iv) köməkçi xidmətlər bazarından ibarət olacaq.

Qanun, elektrik enerjisinin aktiv istehlakçısı, balanslaşdırma, tənzimləyici, bazar operatoru, elektrik enerjisinin təchizatçısı, pərakəndə və topdansatış bazarları, elektroenergetika və bazarların subyektləri, ötürücü və paylayıcı sistemləri operatorları, bərpa olunan enerji mənbələri, və qapalı paylayıcı şəbəkə kimi, 40-dan artıq əsas anlayış nəzərdə tutur.

Qanun, elektroenergetika sahəsində dövlət siyasətinin bu əsas prinsiplərini elan edir: (i) elektroenergetika sisteminin vahidliyi, etibarlılığı və təhlükəsizliyi,

(ii) elektroenergetika sektorunda idarəetmə və tənzimləmənin effektivliyi və şəffaflığı, və (iii) elektroenergetika subyektlərinin xidmətlərindən, habelə elektrik şəbəkəsindən bərabər və ayrı-seçkiliyə yol verilmədən istifadə imkanının yaradılması.

Elektrik enerji bazarı mühitinin üç mərhələli tətbiqinə uyğun olaraq, Qanunun sadalanmış müddəalarının qüvvəyə minməsi müvafiq olaraq 1 iyul 2025-ci və 1 iyul 2028-ci il tarixlərinə qədər təxirə salınmışdır. Belə ki, elektrik enerji paylayıcısı və bazar operatorunun xidmət tarifləri, elektrik enerji istehsalçısı və ötürücü sistem operatorunun müstəqilliyi, qapalı paylayıcı şəbəkənin fəaliyyəti, (elektrik enerjisini istənilən təchizatçısından satınalmaq seçiminə malik) sərbəst və (ehtiyaclarını sadəcə səlahiyyətli təchizatçıdan qarşılayan) sərbəst olmayan istehlakçıların mövcudluğu, və elektrik enerjisinin alqı-satqısının elektrik enerjisi bazarında həyata keçirilməsi 1 iyul 2025-ci ildən qüvvəyə minir.

Eyni zamanda, Qanunun (i) tənzimləyiciyə elektroenergetika subyektlərinə icazə vermək, qiymət və tarifləri müəyyən etmək, və bazara nəzarət etmək imkanlarını verən, (ii) elektrik enerjisi istehsalçılarına elektrik enerjisi bazarında iştirak etmək imkanını verən, (iii) ötürücü sistem operatorunun balanslaşdırıcı və köməkçi xidmətlər bazarlarının fəaliyyətini qəbul etmək, (iv) paylayıcı və elektrik enerjisi təchizatçılarının müstəqilliyini təmin edən, və (v) bazar operatorunun tam fəaliyyətinə imkan verən müddəaları 1 iyul 2028-ci ildən qüvvəyə minir.

Qanun, hal-hazırda tamamilə dövlətə məxsus elektroenergetika sektorunun azad rəqabət münasibətləri əsasında yenidən qurulması şərtlərini müəyyən edir. Belə olduğu halda, o, bu sektora investisiya edənlər üçün imkanlar yaradır.

Qanun həm də elektrik enerjisi bazar iştirakçılarının sayının artırılması üçün zəmin yaradır. Hal-hazırda, bazar subyektləri, tamamilə dövlətə məxsus istehsalçı və ötürücü, Azərenerji ASC, paylayıcı, Azərişıq ASC, və elektrik enerjisi istehlakçılarıdır. Tam fəaliyyət göstərən elektrik enerjisi bazarının subyektləri, elektrik enerjisi istehsalçıları, ötürücü sistem operatoru, paylayıcı sistem operatoru, qapalı paylayıcı şəbəkə operatoru, bazar operatoru, təchizatçı (topdansatış və pərakəndə), və istehlakçılar (aktiv və adi, sərbəst və sərbəst olmayan) olacaqdır.

Bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalçıları elektrik enerjisinin ötürülməsi və paylanması üçün üstünlüyə malikdirlər. Aktiv istehlakçılar, yəni bərpa olunan enerji mənbələri hesabına 150 kVt-dək (150 kVt daxil olmaqla) elektrik enerjisi istehsal edən hüquqi və ya fiziki şəxslər, istehsal edilmiş elektrik enerjisinin istehlakından artıq hissəsini *Elektrik Enerjisi İstehsalında Bərpa Olunan Enerji Mənbələrindən İstifadə haqqında* mövcud Qanuna uyğun olaraq sata bilər.

Elektrik enerjisinin mərkəzləşdirilmiş bazarının fəaliyyəti bazar operatoru tərəfindən təşkil ediləcək. Digər tərəfdən, tənzimləyici, elektrik enerjisinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, təchizatı sahələrində dövlət tənzimlənməsini və nəzarətini həyata keçirən və statusu qanunla müəyyən edilən qurum olacaq.

Hal-hazırda qüvvədə olan *Elektroenergetika haqqında* 3 aprel 1998-ci il tarixli 459-IQ saylı Qanun qüvvəsini 1 yanvar 2024-cü il tarixində itirəcəkdir.

# DƏRMAN VASİTƏLƏRİ HAQQINDA QANUNA DƏYİŞİKLİKLƏR LAYİHƏSİ



Azərbaycan Respublikasının *Dərman Vasitələri haqqında* 22 dekabr 2006-cı il tarixli 208-IIQ sayılı Qanun dərman vasitələri ilə davranışı və onların dövriyyəsini tənzimləyir. Qanun, dərman vasitələrinin qeydiyyatı, ekspertizası, və sertifikatlaşdırılması, istehsal, topdan, və pərakəndə satışlarının lisenziyalaşdırılması, ixrac və idxalı, reklamı və istifadəsi nəticəsində zərərin ödənilməsini əhatə edir.

Qanuna əsasən, bunlar qeydiyyata alınır: (i) dərman vasitələrin orijinalı; (ii) analoqlar (generiklər); (iii) dərman vasitələrinin yeni kombinasiyaları; (iv) dövlət qeydiyyatının müddəti bitmiş dərman vasitələri; və (v) dərman vasitələrinin istehsalında istifadə olunan dərman maddələri. Bu dərman vasitələri qeydiyyata alınmır:

(i) sərgi nümunələri); (ii) reseptlə aptek təşkilatlarında hazırlanan; (iii) fövqəladə hallarda istifadə üçün idxal edilən; (iv) tədqiqatların, klinikaya qədər tədqiqatların və klinik sınaqların aparılması üçün nəzərdə tutulan; (v) nümunə kimi idxal edilən və istehsalda istifadə olunan dərman maddələri; (vi) fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün zəruri miqdarda idxal edilən; (vii) istifadəsi Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi; (viii) nadir rast gəlinən xəstəliklərin müalicəsi üçün nəzərdə tutulan; və (ix) idman yarışları zamanı iştirakçı dövlətlər tərəfindən idmançıları və şəxsi heyətinin istifadəsi üçün nəzərdə tutulan.

Qanuna təklif edilən ən son dəyişikliklər parlament, Milli Məclisdə, 23 iyunda birinci oxunuşdan keçmişdir. Dəyişikliklər, apteklərin sahibkarlıq subyektləri tərəfindən işlədilməsi tələbini vergi qanunvericiliyinə uyğunlaşdırılması misalında, Qanunu müasirləşdirir.

Dərman vasitələrinin sadələşdirilmiş ekspertizası, dərman vasitələrinin təqib və izləmə sistemi, dərman vasitəsinin resepti, klinik protokol, və Etibarlı İstehsalat Təcrübəsi (EİT) kimi əlavə edilir. Eyni zamanda, dəyişikliklər aşağıdakı yeni anlayış və prosedurları təklif edir:

- dərman vasitəsinin dövlət qeydiyyatı anlayışı: dərman vasitələrinin və dərman maddələrinin ekspertizası, o cümlədən dərman vasitələrinin sadələşdirilmiş ekspertizasının nəticələrinə əsasən dərman vasitələrinin və dərman maddələrinin, habelə risk dərəcəsi daha yüksək, yüksək və (və ya) orta olan tibb vasitələrinin dövlət reyestrinə daxil edilməsini və onların sənaye üsulu ilə istehsalına, idxalına və tətbiqinə icazə verilməsini nəzərdə tutan tədbirlər sistemi;

- dərman vasitələrinin dövlət reyestri anlayışı: Qanuna uyğun olaraq dövlət qeydiyyatına alınmış dərman vasitələri, dərman maddələri və tibb vasitələri barədə məlumatlardan ibarət informasiya sistemi;
- tibb vasitəsinin anlayışı: insan orqanizminə farmakoloji, immunoloji və ya metabolik təsir etməyən lakin bu cür təsir edən vasitələrin funksiyasına kömək edə bilən istənilən alət, aparat, ləvazimat, proqram təminatı, material və ya digər vasitələr, həmçinin həmin alət, aparat və ləvazimatın təmizlənməsi üçün nəzərdə tutulan xüsusi vasitələr;
- dərman vasitəsinin xarici (beynəlxalq) qeydiyyatının tanınması prosesi: təsdiq edilmiş ölkələr siyahısındakı azı birində istehsal olunmuş, dövlət qeydiyyatına alınmış və satışına icazə verilmiş və ya xarici (beynəlxalq) təşkilatlar tərəfindən istifadəsinə icazə verilmiş, həmçinin digər ölkələrdə istehsal olunmuş və həmin siyahıda olan ölkələrin azı ikisində dövlət qeydiyyatına alınmış və bu ölkələrdə satışına icazə verilmiş dərman vasitələrinin sadələşdirilmiş ekspertizaya əsasən dövlət reyestrinə daxil edilməsi;
- icazə verən orqan – dərman vasitələrinin dövlət qeydiyyatını həyata keçirən və dərman vasitələrinin idxalına icazə verən orqan;
- dərman vasitəsinin idxalına icazə – icazə verən orqanın verdiyi ayrıca icazə tətbiq ediləcək;
- dərman vasitəsinin istifadəsi üzrə klinik protokollar əsasında yazılan, elektron sənəd formasında tərtib edilən tibbi sənəd, reseptin yazılması prosesi; reseptə yazılan, dövlət reyestrinə daxil edilməyən dərman vasitəsi reseptdə yazılan miqdarda ölkəyə yalnız orqanın resepti təsdiq etdikdən sonra gətirə bilərlər (bu proses qeydiyyata alınmalı olan, lakin alınmamış dərman vasitələrinin, məsələn, fiziki şəxslərin möhtac olduqları artıq miqdardan idxalı yolu ilə, yayılmasının qarşını almaq üçün tətbiq edilir);

- dərman vasitəsi istifadə təlimatlarının təminatı: Azərbaycan dilində təlimatlar qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə aptek təşkilatı istehlakçıya təşkilata dərman vasitəsinin qeydiyyat vəsiqəsinin sahibi tərəfindən Azərbaycan dilində təmin etdiyi təlimat təqdim edir; və
- qida əlavələrinin tənzimi: məmulatın içlik vərəqəsində əlavəyə dair məlumatın yanında göstərilən təfərrüatları dair dəyişikliklər təklif edilir.

Bu dəyişikliklər mərhələlər üzrə qüvvəyə minəcək: dərman vasitələrinin xarici (beynəlxalq) qeydiyyatlarının tanınmasına dair qaydalar və qida əlavələrini müşayiət edən məlumata dair tələblər bu ilin 1 noyabrından və dərman reseptlərinin yazılmasının yeni qaydaları 1 yanvar 2024-cü il tarixindən qüvvəyə mindiyi halda, qalan dəyişikliklər onların planlaşdırılan daha əvvəl dərci zamanı qüvvəyə minəcək.

Dəyişikliklər layihəsi qanun kimi təsdiqlənməmiş parlamentdə daha iki oxunuşdan keçməlidir.

# MƏDƏN HÜQUQLARININ VERİLMƏSİ QAYDALARI YENİLƏNDİ



18 iyul 2023-cü il tarixində 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Prezident Fərmanına dəyişikliklər qəbul edilmişdir. Dəyişikliklər, *Yer Təkinin İstifadəyə Verilməsi üzrə Müsabiqə və Hərracların Keçirilməsi Qaydaları və Şərtləri haqqında Əsasnaməni* əvəz edən *Yer Təkinin İstifadəyə Verilməsi üzrə Hərracların (Auksion və Müsabiqələrin) Keçirilməsi Qaydalarını* təsdiq etmişdir.

Hərracların Ekologiya və Təbii Sərvətlər və Fövqəladə Hallar Nazirliklərinin birgə təşkil etdiyini müəyyən edən Əsasnamədən fərqli olaraq, Qaydalar bu vəzifəni Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə vermişdir. Qaydalar hərraca müraciət etmək, onun nəticələrini sənədləşdirmək və onu keçirmək prosedurlarını təsdiq etməklə hərracın səlis tənzimlənməsini təmin edir.

Birbaşa danışıqlar yolu ilə verildiyi hallar istisna olmaqla, yerin təki istifadəyə hərrac vasitəsilə verilir. Qeyri-filiz yataqları auksion, filiz yataqları isə müsabiqə əsasında istifadəyə verilir. Auksionlar açıq, müsabiqələr isə açıq və qapalı ola bilər.

Hərraclar, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi tərəfindən təşkil edilir. Qaydalar, mədən hüquqlarının Nazirlər Kabinetinin 10 may 2019-cu il tarixli 216 nömrəli Qərarı ilə tənzimlənən birbaşa danışıqlar yolu ilə verilməsi hallarına təsir göstərmir.

Açıq müsabiqədə və auksionda mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının, eləcə də xarici dövlətlərin hüquqi və fiziki şəxsləri iştirak edə bilərlər. Qapalı müsabiqədə yalnız bunun üçün dəvət olunmuş fiziki və hüquqi şəxslər iştirak edirlər.

Qapalı müsabiqə aşağıdakı hallardan birində keçirilir: (i) təqdim olunan yerin təki haqqında geoloji məlumatlar məxfidir; (ii) radioaktiv xammalın çıxarılması üçün yerin təkinin verilməsi; və (iii) müdafiə müəssisələri iştirakçı qismində çıxış etdikdə.

Hərraca hazırlaşmaq məqsədilə Agentlik ölkənin iqtisadiyyatı və sənayesinin tikinti materiallarına olan ehtiyaclarının illik proqnozunu nəzərdən keçirir. Proqnoz cari ilin 15 sentyabr tarixinədək Fövqəladə Hallar Nazirliyi tərəfindən Agentliyə təqdim edilir.

Dövlət Geoloji İnformasiya Fondunda saxlanılan ehtiyatları təsdiq edilmiş faydalı qazıntı yataqlarına dair materialların təhlili əsasında, Agentlik növbəti il üçün hərraca çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısını hər il dekabrın 15-dək müəyyənləşdirir.

Agentlik hərrac barədə, keçirilməsi tarixindən ən azı 30 (otuz) iş günü əvvəl elan verir. Qapalı müsabiqə zamanı açıq elan verilmir. Qapalı müsabiqələr zamanı sənədlər müsabiqə tarixindən on iş günü əvvəl iştirakçılara göndərilir.

Hərracda iştirak haqqının miqdarı və müsabiqə predmetinin ilkin qiyməti Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyi ilə razılaşdırılmış qaydalara əsasən müəyyən edilir.

Agentlik hər il hərraca çıxarılması nəzərdə tutulan yer təki sahələrinin siyahısını, o cümlədən faydalı qazıntı yataqları yerləşən torpaq sahələrinin ayrılmasına dair torpaq sahiblərindən və aidiyyəti dövlət orqanlarından (qurumlarından) qabaqcadan alınmış razılığı (aşağıda müzakirə olunan) hərrac komissiyasına təqdim edir. Hər hərracı icra etmək üçün Agentlik komissiya yaradır.

Hərrac prosedurları yekunlaşdıqda komissiya ləğv edilir.

Komissiyanın iclası, üzvlərinin ən azı üçdə ikisi iştirak edərsə, səlahiyyətlidir. Komissiyanın iclasındakı qərarlar iştirakçı üzvlərin sadə səs çoxluğu olmaqla açıq səsvermə yolu ilə qəbul edilir; səslər bərabər olduqda komissiya sədrinin səsi həlledicidir. Komissiya üzvlərinin bitərəf qalmaq hüququ yoxdur.

Hərracın nəticələrinə dair yekun protokol əsasında, *Lisenziyalar və İcazələr haqqında* Qanuna uyğun olaraq, yer təki sahəsi "dağ-mədən ayırması" statusu (icazə) verməklə hərrac qalibinin istifadəsinə verilir.

Hərraca çıxarılan yerin təki sahəsi ilə əlaqədar yaranan fikir ayrılıqları zamanı Agentlik məsləhətçi qismində müstəqil ekspert və mütəxəssisləri cəlb edə bilər. Hərracın keçirilməsi ilə bağlı tərəflər arasında həll edilməmiş mübahisələr inzibati və məhkəmə qaydasında həll edilir.

# RƏQƏMSAL ÖDƏNİŞLƏRİN VƏ XARİCİ ÖDƏNİŞ SİSTEMLƏRİNİN TƏNZİMLƏNMƏSİ



*Ödəniş Xidmətləri və Ödəniş Sistemləri haqqında* Azərbaycan Respublikasının 14 iyul 2023-cü il tarixli, 987-VIQ nömrəli Qanunu 9 avqust 2023-cü il tarixində dərc edilmişdir. Qanun ödəniş sistemlərinin, ödəniş xidmətlərinin, ödəniş təşkilatlarının, elektron (rəqəmsal) pul təşkilatlarının, və ödəniş sistemlərinin operatorlarının tənzimlənməsi və nəzarəti prinsiplərini müəyyənləşdirir.

Qanun rəqəmsal pul və ödənişlərin tənzimlənməsini təqdim edir. E-pul təşkilatları bu Qanundan əvvəl yalnız *Cinayət Yolu ilə Əldə Edilmiş Əmlakın Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Mübarizə haqqında Qanunda* (fevral ayının yuxarıdakı yeniliyinə baxın) qısa təsvir edilmişdir. Bundan əlavə, Qanun xarici ödəniş təşkilatları, xarici e-pul təşkilatları, və xarici (ödəniş sistemləri) operatorların tənzimlənməsini təqdim edir.

Digərləri arasında aşağıdakı təriflər tətbiq olunur:

- ödəniş sistemi ödəniş əməliyyatlarının emalı, klirinqi və hesablaşmaların aparılması üzrə rəsmiləşdirilmiş və standartlaşdırılmış ümumi mexanizm və qaydalara malik, üç və daha artıq iştirakçının üzv olduğu pul vəsaitinin köçürülməsi sistemidir;
- operator ödəniş sisteminin fəaliyyətini təşkil, və həmin sistemin qaydalarını, müəyyən edir;
- ödəniş xidməti aşağıdakıların istənilən biridir:
- ödəniş hesabı üzrə pul vəsaitinin nağd formada mədaxili və məxarici;
- kredit köçürməsi, birbaşa debitləşmə, ödəniş kartı və ya digər oxşar ödəniş alətləri ilə ödəniş əməliyyatlarının icrası;
- ödəniş alətlərinin emissiyası və ödəniş əməliyyatının ekvayrinqi;
- pul köçürmələri;
- e-pulun emissiyası və e-pul ilə ödəniş əməliyyatlarının icrası;
- ödəniş əməliyyatlarının aparılması üçün vasitəçilik xidməti; və
- hesab üzrə məlumat xidməti;
- ödəniş təşkilatı e-pulun emissiyası və e-pul ilə ödəniş əməliyyatlarının icrası istisna olmaqla, digər ödəniş xidmətlərini məcmu halda və ya ayrı-ayrılıqda göstərən hüquqi şəxsdir;
- e-pul qəbul edilən pul vəsaiti məbləğində ödəniş xidməti istifadəçisinin sərəncamına verilən, elektron formada saxlanılan, ödəniş əməliyyatlarının həyata keçirilməsinə imkan verən və e-pulun emitenti ilə yanaşı üçüncü şəxslər tərəfindən də ödəniş üçün qəbul edilən ödəniş alətidir;

- e-pulun emissiyası e-pulun emitenti tərəfindən e-pulun ödəniş xidməti istifadəçisinin sərəncamına verilməsidir;
- e-pul sahibi e-pula sərəncam vermək hüququ olan ödəniş xidməti istifadəçisidir;
- e-pul təşkilatı lisenziya əsasında e-pulu emissiya və e-pul ilə əlaqəli ödəniş əməliyyatlarını icra edən, eyni zamanda digər ödəniş xidmətlərini həyata keçirmək hüququ olan hüquqi şəxsdir;
- xarici ödəniş təşkilatı, xarici e-pul təşkilatı, və xarici operator lisenziyalaşdırılan əməliyyatları həyata keçirmək üçün filial kimi dövlət qeydiyyatına alınır və Qanun əsasında lisenziya alır;
- ödəniş agenti bank, ödəniş təşkilatı və ya e-pul təşkilatına ödəniş xidmətlərini göstərən hüquqi şəxs və ya sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxs; və
- hesablaşma agenti ödəniş sistemində ödəniş sərəncamları üzrə hesablaşmaları iştirakçılara açdığı hesablar üzərindən həyata keçirən hüquqi şəxsdir.

Qanunda Mərkəzi Bank, banklar, bank olmayan kredit təşkilatları, poçt rabitəsinin milli operatoru, (digər) ödəniş təşkilatları, və e-pul təşkilatları daxil olmaqla ödəniş xidmətlərinin təchizatçıları sadalanır.

E-pullar: (i) yerli bank və filiallar vasitəsilə fəaliyyət göstərən xarici banklar, (ii) poçt rabitəsinin milli operatoru, və (iii) e-pul təşkilatları tərəfindən buraxılır; başqa sözlə, Azərbaycanda yalnız burada icazə verilmiş və buraxılmış e-pullar tanınacaq. Emissiya olunan e-pulun valyutası, maksimum məbləği və bir emitentin emissiya etdiyi e-pul üzrə öhdəliklərinin maksimum həcmi Mərkəzi Bank müəyyən edir. Emitent qəbul edilmiş pul vəsaiti məbləğində dərhal e-pulu emissiya edir və e-pulun sahibi tərəfindən istifadəsinə imkan yaradır.

Yerli hüquqi şəxs və fərdi sahibkarlar habelə Azərbaycanda filialları vasitəsilə fəaliyyət göstərən xarici hüquqi şəxslər tərəfindən e-pul və onun qalıq dəyəri yalnız onların ödəniş hesablarından/a köçürmə yolu ilə əldə edilir. E-pul təşkilatı tərəfindən açılan hər bir ödəniş hesabı haqqında məlumat Dövlət Vergi Xidmətinə ötürülməlidir. Hesablar yerli hüquqi şəxslərə, fərdi sahibkarlara və filiallar vasitəsilə fəaliyyət göstərən xarici hüquqi şəxslərə açıla bilər.

Qanunla ödəniş təşkilatı, e-pul təşkilatı və (ödəniş sistemləri) operatorlara tətbiq olunan tələblər eyni qaydada Azərbaycanda filiallar vasitəsilə fəaliyyət göstərən xarici ödəniş təşkilatı, e-pul təşkilatı, və operatorlara da şamil edilir. Başqa sözlə, Azərbaycanı öz fəaliyyət sahəsinə daxil etmək istəyən istənilən xarici ödəniş təşkilatı, e-pul təşkilatı, və ödəniş sistemi operatorları filiallar vasitəsilə fəaliyyət göstərməli və müvafiq lisenziyaya malik olmalıdırlar. Lisenziyanın alındığı zaman Mərkəzi Bank ərizəçi ilə əlaqədar müvafiq xarici yurisdiksiyanın tənzimləyicisinə müraciət edə bilər.

Azərbaycandakı ödəniş xidməti təchizatçıları xarici ödəniş xidməti təchizatçısı və operatorla onların qeydiyyatda olduğu ölkədə müvafiq lisenziyaya malik və fəaliyyəti üzərində, o cümlədən AML və CFT sahəsində, nəzarətin həyata keçirilməsi şərti ilə müqavilə bağlaya bilər.

Bu cür müqavilələr barəsində Mərkəzi Banka bildiriş göndərilməlidir. Beləliklə, xarici e-pul təşkilatlarının belə müqavilə əsasında Azərbaycanda fəaliyyət göstərməsinə imkan yaradılmır. Yekun müddəalarına əsasən, Qanun dərc edildiyi gündən üç ay sonra, yəni 9 noyabr 2023-cü il tarixində, qüvvəyə minəcəkdir. Mövcud ödəniş xidməti təchizatçılarının lisenziyanı almaq, müvafiq reyestrə daxil olmaq, və Qanuna başqa şəkildə əməl edilməsini təmin etmək üçün 9 may 2024-cü il tarixinədək altı ay müddətində vaxtı var.

# DÖVLƏT SATINALMALARININ YENİ QAYDALARI



14 iyul 2023-cü il tarixində qəbul edilmiş 988-VIQ sayılı, *Dövlət Satınalmaları haqqında*, Qanun *Malların, Tikintilərin və Xidmətlərin Satınalmaları haqqında 1994-cü İl UNCITRAL Nümunəvi Qanununa* əsaslanan eyni ad və mövzulu 245-IIQ sayılı 2001-ci il Qanununu əvəz edir. 1994-cü il Nümunəvi Qanunun *Dövlət Satınalmaları haqqında UNCITRAL Nümunəvi Qanunu (2011)* ilə əvəz olunması ölkəmizin yerli mülahizələrlə birgə yeni Qanunun qəbul edilməsini diktə etmişdir.

Dövlət satınalmaları, dövlət orqanları, büdcədənkənar dövlət fondları, publik hüquqi şəxslər, və dövlətin nəzarət etdiyi hüquqi şəxslərin təşəbbüsü ilə həyata keçirilən malların, işlərin və ya xidmətlərin əldə edilməsi prosesidir. Dövlətin ən azı 30 faiz səviyyəsində nəzarət etdiyi qurumlara tətbiq edilən əvvəlki Qanundan fərqli olaraq, yeni Qanun nəzarətin bu və ya digər həddini müəyyən etmir.

Satınalma metodları aşağıdakılardır: (i) açıq tender; (ii) iki mərhələli tender; (iii) qapalı tender (məxfi və ya xüsusi satınalmalar üçün istifadə olunur və ən azı üç təchizatçının iştirakını tələb edir); (iv) kotirovka sorğusu; və (v) bir mənbədən satınalma (satınalma predmetinin unikal xüsusiyyəti olduqda və ya təcili və ya məxfi satınalmalarda istifadə olunur). Satınalma metodu Qanunun tələblərindən asılı olaraq müvafiq satınalma təşkilatı tərəfindən müəyyən edilir.

Beləliklə, ehtimal olunan qiymət 100.000 manat və ondan artıq olduqda, satınalmalar açıq tender və ya iki mərhələli tender metodu ilə keçirilir.

Ehtimal qiymətindən asılı olmayaraq, aşağıdakı satınalma metodları yalnız İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti razılığı ilə istifadə edilə bilər:

- qapalı tender;
- bir mənbədən satınalma metodu; və
- çərçivə sazişinin bağlanması ilə nəticələnən açıq tender və ya kotirovka sorğusu metodları.

Xidmət qeyd olunan razılığın verilməsi ilə bağlı müraciətlərə 20 iş günü ərzində baxır.

Satınalma metodundan asılı olmayaraq, dövlət satınalmaları prosesi qalibin seçilməsi və satınalma müqaviləsinin bağlanması prosedurlarının aparılmasına məsul olan satınalma komissiyası kimi tanınan müvəqqəti işçi qrupunun yaradılmasını nəzərdə tutur.

Qanun dövlət satınalmalarının mərhələlərini müəyyən edir: (i) planlaşdırma və qiymətqoyma; (ii) komissiyanın yaradılması; (iii) təchizatçıların əvvəlcədən müəyyənləşdirilməsi və sənədlər toplusunun hazırlanması; (iv) şərtlər toplusunun hazırlanması; (v) elanın yerləşdirilməsi və dəvətlərin göndərilməsi; (vi) təkliflərin qəbulu və açılması; (vii) təkliflərin qiymətləndirilməsi; (viii) nəticələr haqqında yekun protokolun hazırlanması; (ix) çərçivə sazişinin bağlanması; (x) təklifin akseptinə dair və satınalma müqaviləsinin təchizatçıya çatdırılması barədə bildiriş; (xi) müqavilənin imzalanması, icra təminatı; (xii) sazişin qüvvəyə minməsi; və (xiii) hesabatın hazırlanması.

Əvvəlki Qanunun dövlət satınalmalarının yalnız Vahid Portal, https://etender.gov.az/, vasitəsilə aparılması tələbi yeni Qanuna daxil edilib. Satınalma ilə bağlı məxfi məlumatı qorumaq üçün kağız daşıyıcılardan da istifadə edilə bilər.

Qanun yeni konsepsiya təqdim edir: çərçivə sazişi. Bu, satınalma təşkilatı ilə iki və ya daha çox təchizatçı arasında dövri (büdcə ili) və ya təkrar satınalmaların şərtlərini müəyyən edən müqavilədir. Çərçivə müqaviləsi əsasında satınalma predmetinin həcmi və dəyəri onun bağlanması zamanı müəyyən edilmir.

Qanun aşağıdakıları əhatə etmir: (i) yalnız dövlət orqanlarından və təbii inhisar subyektləri tərəfindən qiymətləri tənzimlənən mal, iş və ya xidmətlərin təchizatı;

(ii) kreditlərin alınması; (iii) qiymətli kağız, çek, və xarici valyuta ilə əqdlər və əlaqəli xidmətlər; (iv) dövlət-özəl tərəfdaşlıqları əsasında satınalmalar; (v) notariat hərəkətləri; (vi) investisiya və aktivlərin idarə edilməsi xidmətləri; (vii) pul nişanları, valyuta ehtiyatlarının idarə edilməsi, nağd xarici valyutanın alışı və daşınması, nəzarət subyektlərinə münasibətdə nəzarət, o cümlədən rezolyusiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı satınalmalar; (viii) dövlət büdcəsindən maliyyələşdirilən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satınalınması; (ix) birinci instansiya məhkəmələri üçün dəftərxana ləvazimatının satınalması; (x) Ələt Azad İqtisadi Zonasında təchizatlar; (xi) lotereya təşkilatçısı və idman mərc oyunları operatoruna idarəetməsinə verilən qurum tərəfindən satın alınma; (xii) 10.000 manatadək satınalmalar (bəzi təşkilatlar üçün 20.000 manat); və (xiii) müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları üçün alınan mal, iş və ya xidmətlər. Beynəlxalq təşkilatların vəsaiti hesabına satınalma müvafiq sənədin şərtlərinə uyğun olaraq həyata keçirilir.

Təchizatçılar həm satınalma təşkilatının, həm də Xidmətin hərəkətlərindən, hərəkətsizliyindən və qərarlarından inzibati qaydada şikayət verə bilərlər. Onların öz hüquqlarını və qanunla təmin edilmiş mənafelərini qorumaq üçün məhkəmələrə müraciət etmək hüququ da var.

Qanun, artıq qəbul olunub və 2024-cü il yanvarın 1-dən qüvvəyə minəcəkdir.

# ENERGETİKA SAHƏSİ YENİ TƏNZİMLƏMƏ İLƏ ÜZLƏŞİR



*Energetika haqqında* Qanun Layihəsi 24 oktyabr 2023-cü il tarixində Milli Məclisdə üçüncü oxunuşdan keçmişdir. Qanun olaraq təsdiqləndikdən sonra Layihə, 1998-ci il tarixli 541-IQ saylı eyni adlı Qanunu əvəz edəcək. Layihə, enerji sənayesinin (energetikanın) ümumi əsaslarını, habelə enerji təhlükəsizliyini təmin etmək və sənayedə sağlam rəqabət mühiti yaratmaq mexanizmlərini təklif edir.

Layihənin əhatə etdiyi enerji (enerji resurslarına) bütün növ enerji məhsulları, o cümlədən yanacaq növləri, bərpa olunan enerji, elektrik, istilik enerjisi və digər enerji formaları daxildir. Qanunla əhatə edilmiş energetika sahəsində fəaliyyət növləri aşağıda verilmişdir:

- enerji resurslarının kəşfiyyatı;
- enerji resurslarının işlənməsi və hasilatı;
- enerji resurslarının emalı;
- enerjinin istehsalı;

- enerjinin saxlanılması;
- enerjinin nəqli (ötürülməsi);
- enerjinin paylanması;
- enerjinin idxalı və ixracı;
- enerjinin topdan və (və ya) pərakəndə satışı; və
- təbii qaz və elektrik enerjisi bazarlarının fəaliyyətinin təşkili.

Layihə enerjinin avtomobil, dəmir yolu, hava və su nəqliyyatı vasitələri ilə daşınmasına, həmçinin nüvə materiallarının idxalına, ixracına, istehsalına, saxlanılmasına və emalına şamil olunmur. Müvafiq fəaliyyət, energetika sahəsində fəaliyyət növlərindən birini və ya bir neçəsini həyata keçirən hüquqi və ya fiziki şəxs tərəfindən həyata keçirilir.

Lisenziya və (və ya) icazə tələb edən energetika sahəsində fəaliyyət növləri bu cür lisenziyalar və (və ya) icazələr əsasında həyata keçirilir. Hökumətlə lisenziya almış energetika subyekti arasında bağlanmış müqaviləyə əsasən bu fəaliyyət növləri həyata keçirilir: (i) karbohidrogen ehtiyatlarının kəşfiyyatı, işlənməsi, və hasilatı, (ii) neft və qazın ixrac boru kəmərləri vasitəsilə nəqli, (iii) elektrik enerjisinin paylayıcı şəbəkəsinin, qazpaylayıcı şəbəkənin və qaz anbarlarının idarəetməyə verilməsi, və (iv) energetika sahəsinin müxtəlif sektorlarını tənzimləyən qanunlarla müəyyən edilmiş digər növlər.

Artıq bağlanmış energetika müqavilələri ilə əlaqədar olaraq, Layihə, Azərbaycan Respublikasının ayrı-ayrı qanunları ilə təsdiq edilmiş hasilatın pay bölgüsü haqqında sazişlərə və neftin və qazın ixrac boru kəmərləri vasitəsilə nəql edilməsinə dair sazişlərə və həmin sazişlər çərçivəsində bağlanılmış və Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş digər sazişlər üzrə münasibətlərə yalnız həmin sazişlərdə nəzərdə tutulan və həmin sazişlərə zidd olmayan hallarda şamil edilir.

Energetika sahəsində fəaliyyət növlərinə nəzarət təyin ediləcək tənzimləyici tərəfindən həyata keçiriləcəkdir. Enerji istehlakçıları məişət (elektrik və ya istilik enerjisindən, habelə təbii qazdan istifadə edən fiziki şəxslər) və qeyri-məişət, habelə sərbəst (elektrik enerjisini müəyyən edilmiş həddən artıq istehlak edən, həmçinin may ayının yuxarıdakı yeniliyinə baxın) və sərbəst olmayan istehlakçılardan ibarət olacaqdır. Sərbəst istehlakçı müstəqil şəkildə enerji təchizatçısını seçə bilər. Sərbəst olmayan istehlakçılar üçün təchizatçı Hökumət tərəfindən müəyyən edilir.

Energetika subyektləri və enerji istehlakçıları energetika fəaliyyətini həyata keçirən təbii və ya dövlət inhisarı subyektinin mal, iş, və xidmətlərini normativ aktlarla təsdiq edilmiş şərtlərlə Hökumət tərəfindən tənzimlənən qiymətlərlə əldə edə bilərlər. Təbii inhisarların tədarük qiymətləri *Təbii İnhisarlar haqqında* Qanuna uyğun olaraq müəyyən edilir. Dövlət inhisarının subyektləri və ya onlardan tədarükün qiymətləndirilmə qaydası müəyyənləşdirilməyib.

Energetika subyektləri qiymətləri tənzimlənən və tənzimlənməyən hər bir fəaliyyətlə bağlı mühasibat uçotunu ayrı aparmalıdırlar. Hər bir fəaliyyət üzrə, həmçinin mənfəət və itkilər üzrə hesabatlar ayrıca tərtib olunmalıdır. Bundan əlavə, energetika subyektləri maliyyə hesabatlarının hər il müstəqil auditor tərəfindən yoxlanılması və dərc edilməsini təmin edirlər.

Enerji balansı, enerji təhlükəsizliyinin təmin edilməsi, enerjiyə olan tələb və təklifin proqnozlaşdırılması və onun göstəricilərinin yerinə yetirilməsi məqsədilə ayrı-ayrı enerji növləri üzrə uçot göstəriciləri sistemidir. Balans energetika subyektlərindən toplanan məlumatlar, habelə enerji istehlakı haqqında məlumatlar əsasında Hökumət tərəfindən təyin edilmiş qurum(lar) tərəfindən tərtib edilir.

Hökumət energetika sahəsinin davamlı inkişafı üçün qısamüddətli (beş ilədək), orta müddətli (beş ildən on ilədək) və uzunmüddətli (on ildən çox) dövlət proqramlarını qəbul edəcəkdir.

Layihə dərc edildiyi andan qüvvəyə minir. Layihənin 15.3-cü (sərbəst olmayan istehlakçıların elektrik enerji təchizatı) və 15.4-cü (sərbəst istehlakçıların enerji təchizatçısını seçmək hüququ) Maddələri 1 iyul 2025-ci il tarixindən, 8-ci (tənzimləyici orqan), 10.2-ci (energetika subyektinin dövlət və təbii inhisar subyektlərindən satınalmaların məhdudlaşdırılması), və 15.6-cı Maddəsinin ikinci cümləsi (enerji təchizatçıları tərəfindən istehlakçılara verilən məlumatlar) 1 iyul 2028-ci il tarixindən qüvvəyə minir.

**Bureau 28a**

# RƏQABƏT MƏCƏLLƏSİNİN LAYİHƏSİ İCTİMAİ DİNLƏMƏYƏ TƏQDİM OLUNUB



*Milli Məclis, Respublika prezidentinin daha öncə təklif etdiyi Rəqabət Məcəlləsinin layihəsini ictimai dinləməyə çıxarmışdır. Sentyabr ayında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində keçirilən dinləmə ilə yanaşı, qanun layihəsi parlamentin İnternet saytı vasitəsilə ictimai dinləmələr üçün açıqdır. Məcəllənin yenidən işlənməsi ehtimal edilən hazırkı layihəsi təqdim edilməmiş Məcəllənin 2006-cı ildə təklif edilmiş ilkin layihəsi parlamentin iki oxunuşundan keçərək o zamandan əsasən rəfə qaldırılmışdır.*

*azırkı layihə on iki fəsil və 84 maddədən ibarətdir.Yeni Məcəllənin Antiinhisar Fəaliyyəti, Haqsız Rəqabət, və Təbii İnhisarlar haqqında Qanunları habelə Antidempinq, Kompensasiya və Mühafizə Tədbirləri haqqında nisbətən az istinad edilən Qanundan ibarət mövcud rəqabət qanunvericiliyini məcəlləşdirərək əvəz edəcəkdir. Məcəllənin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına qoşulması yolunda vasitəçi olacağı bildirilir.*

ayihə, yeni anlayış və təriflər təqdim edərək hal-hazırda tətbiq edilən bir sıra anlayışları yenidən işlədir.

Müvafiq bazarın coğrafi sərhədlərdən kənardakı müştərinin iqtisadi, texniki və ya digər praktiki səbəblərdən müvafiq əmtəəni əldə etməyi məqsədəuyğun hesab etmədiyi və xüsusiyyətləri, qiymətləri və istifadə təyinatı eyni olan, yaxud qarşılıqlı əvəz oluna bilən əmtəələrin təklif olunduğu bazar kimi anlayışı təqdim edilir. Layihə, aşağı inhisar qiyməti, bazara giriş maneələri, və təsərrüfat subyektlərinin təmərküzləşməsi kimi anlayışlar da daxil edir.

Yenidən işlədilən anlayışlara bazarda hökmran mövqe, mövqedən sui-istifadə halları, haqsız rəqabət hərəkətləri, təbii inhisarlar, və rəqabət əsaslı dövlət müdaxiləsi tələbləri daxildir. Layihə, həmçinin müvafiq bazar payı, dempinq, və kartel sövdələşmələri anlayışlarını yeniləyir.

Bazarda hökmran mövqe anlayışının yenidən verilməsi xüsusilə əhəmiyyətlidir. Hökmran mövqe, təsərrüfat subyektinin bazardakı payı 50 faiz və daha artıq olduqda mövcuddur. Bazar payı 50 faizdən aşağı, lakin 35 faizdən artıq olan təsərrüfat subyekti müvafiq bazar üzrə təsirə qadir olduqda hökmran mövqeyə malik hesab edilir.

Eyni zamanda, müvafiq bazarda hərəkətləri birbaşa və ya dolayı yolla birgə xarakter daşıyan, hər biri on faizdən çox bazar payına malik olan iki və daha çox təsərrüfat subyekti aşağıdakı hallarda birgə hökmran mövqe tutmuş hesab edilir:

- iki və ya üç təsərrüfat subyektinin birgə bazar payı 50 faizdən çox olduqda; və ya
- dörd və ya beş təsərrüfat subyektinin birgə bazar payı 70 faizdən çox olduqda.

Rəqabəti məhdudlaşdıran üfüqi sazişlərin müəyyən edilməsi və sübutların əldə edilməsi üçün aşağıdakılar araşdırılır:

- müvafiq bazarda təsərrüfat subyektlərinin sayının 20 faiz və daha çox azalması və bazardan çəkilməsi;
- müvafiq bazarda məhsul dövriyyəsinin 20 faiz və daha çox dəyişməsi;
- müvafiq bazarda qiymətlərin 30 gün ərzində on faizdən çox dəyişdirilməsi; və
- müvafiq bazarda 30 faiz və daha çox birgə paya malik olan saziş iştirakçılarının hamısı tərəfindən qiymətlərin 30 gün ərzində on faizdən çox dəyişdirilməsi.

Haqsız rəqabət formalarına aşağıdakılar əlavə edilir:

- müştərilərə qarşı aqressiv davranış;
- müştərilərin çaşdırılması və aldadılması; və
- kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və ya yayılması.

Layihə həmçinin rəqabət qanunvericiliyinə əməl edilməsi üzrə dövlət nəzarəti, bu qanunvericiliyin pozulması hallarına baxılması qaydaları, pozuntulara görə məsuliyyətə dair müddəaları daxil edir.

Layihə oktyabrın sonlarında parlamentin ikinci oxunuşundan keçmişdir.

# ARBİTRAJ HAQQINDA QANUN LAYİHƏSİ



Milli Məclis tərəfindən 19 dekabr tarixində *Arbitraj haqqında* Qanun layihəsinin ikinci oxunuşu təqdim edilmişdir. Təklif olunan bu Qanun layihəsi, öz növbəsində *UNCITRAL Beynəlxalq Ticarət Arbitraj haqqında Model Qanuna* (1985) əsaslanan 1999-cu il 757-IQ saylı *Beynəlxalq Arbitraj haqqında* Qanunu əvəz etmək məqsədini güdür. Layihə, Model Qanuna 2006-cı ildə qəbul edilmiş dəyişiklikləri daxil edir.

Qanun layihəsinin əsas məqsədi, məhkəmələrin yükünü azaltmaq üçün daxili arbitraj sistemini yaratmaqdır. Beləliklə, əvvəlki Beynəlxalq Arbitraj haqqında Qanundan fərqli olaraq, Qanun layihəsi həm beynəlxalq, həm də yerli (arbitrajın yeri Azərbaycanda olan arbitraj məhkəməsi) arbitrajını əhatə edir. Təklif olunan Qanun layihəsi, arbitraj üçün tənzimləyici çərçivəni, onun prosedura aspektlərini və qurumsallaşması, arbitraj sazişlərini, habelə xarici arbitraj qərarlarının tanınması və icrasını əhatə edir.

Kommersiya mübahisələri, habelə tərəflərin mübahisənin predmeti barədə sərəncam hüququna malik olduğu və üçüncü şəxslərin hüquqlarına toxunmayan mübahisələr arbitrajda həll edilə bilər.   Qanun layihəsi, arbitrajda həll edilə bilməyən iş və mübahisələrin siyahısını daxil edir: (i) cinayət və inzibati xətalar; (ii) inzibati və digər publik hüquq münasibətlərindən irəli gələn; (iii) ailə; (iv) fiziki şəxslərin hüquqi statusu ilə bağlı; (v) məşğulluq və əmək; (vi) ətraf mühitin mühafizəsi ilə bağlı mübahisələr; (vii) vərəsəlik; (vii) əqli mülkiyyət hüquqlarının müəyyən edilməsi və qeydiyyatı; (viii) rəqabət və istehlakçıların müdafiəsi, eləcə də istehlak kreditləri; (ix) Azərbaycan ərazisində yerləşən daşınmaz əmlak üzərində əmlak hüquqları; (x) müflisləşmə və iflas; (xi) müəssisənin ləğvi və ya onun qərarlarının ləğvi (əgər qurumun Azərbaycanda hüquqi ünvanı varsa); (xii) sahibkarlıq subyekti olduğu hallar istisna olmaqla, fiziki şəxslər arasında mübahisələr; (xiii) daşıma müqavilələri üzrə daşıyıcılara qarşı; və (xiv) Azərbaycan ərazisində daşınmaz əmlakın icarəsi.  Daşıyıcılara qarşı daşıma müqavilələrindən irəli gələn iddialara, habelə Azərbaycanda daşınmaz əmlakın icarəsi ilə bağlı mübahisələrə yerli arbitrajda baxıla bilər.

Yerli daimi arbitraj təşkilatı müvafiq dövlət qeydiyyatına alınmış və akkreditasiyadan keçmiş qeyri-kommersiya təşkilatıdır. Qanun layihəsi, bu təşkilatın yaradıla biləcəyi Mülki Məcəllə ilə müəyyən edilmiş qeyri-kommersiya təşkilati-hüquqi və ya istənilən digər təşkilati-hüquqi formanı müəyyən etmir.

Təşkilat, mübahisənin həlli üçün arbitraj məhkəməsinin səlahiyyətlərinə aid məsələlər istisna olmaqla, arbitraj icraatının idarə edilməsi, arbitrajın təşkilati təminatı,

o cümlədən arbitrlərin təyin olunması, onlara etiraz edilməsi və onların səlahiyyətinə xitam verilməsi məsələlərinin həlli, kargüzarlıq, arbitraj haqlarının və digər arbitraj xərclərinin ödənilməsinin təşkili funksiyalarını həyata keçirir. Dövlət orqanları, bələdiyyələr, dövlətə məxsus hüquqi şəxslər, publik hüquqi şəxslər (qanunvericilikdə nəzərdə tutulmuş digər hallar istisna olmaqla), siyasi partiyalar, dini qurumlar, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, Notariat Palatası və Mediasiya Şurası tərəfindən daimi arbitraj təşkilatların yaradılması qadağandır.

Yerli arbitraj icraatına arbitrlərə dair tələblər aşağıdakılardır:

- işin nəticəsinə marağın olmaması və mübahisə tərəflərindən müstəqillik;
- yaşı 25-dən az olmaması;
- istənilən ixtisas üzrə ali təhsil; və
- üç ildən az olmayan öz ixtisası üzrə təcrübə.

Mübahisəni təkbaşına həll edən arbitr və, tərəflər arasında digər razılıq olmadıqda, arbitraj məhkəməsində sədrlik edən arbitr ali hüquq təhsilinə malik olmalıdır. Arbitraj sazişi və ya daimi arbitraj təşkilatının qaydaları ilə arbitr üçün istənilən əlavə tələblər müəyyən edilə bilər. Qanun layihəsinin arbitr kimi fəaliyyət göstərə bilməyən şəxslərin siyahısına hakimlər, məhkumluğu olan şəxslər, hüquq-mühafizə orqanlarından xaric edilmiş, vəkillik və notariat fəaliyyətinə xitam verilmiş, həmçinin Mediasiya Şurasına üzvlüyündən çıxarılmış şəxslər daxildir.

Tərəflər arasında digər razılıq olmadıqda, arbitraj qərarının ləğvi ilə bağlı ərizə tərəfin arbitraj qərarından məlum olduğu tarixdən üç ay ərzində Azərbaycanın beş Kommersiya Məhkəməsindən birinə verilir. Arbitraj qərarı ləğv edildikdə, arbitraj sazişi qüvvədə qalır və tərəflər mübahisənin həll olunması üçün yenidən arbitraja məhkəməsinə müraciət edə bilərlər.

Kommersiya Məhkəməsi arbitraj sazişi bağlanarkən tərəflərdən birinin fəaliyyət qabiliyyətini itirməsi, müqavilənin etibarsızlığı, prosessual hüquqların pozulması, tərəflərlə razılaşdırılmış arbitraj məhkəməsinin tərkibi ilə uyğunsuzluq və arbitraj müqaviləsində nəzərdə tutulmayan mübahisənin həlli barədə sübutlar olduqda, arbitraj məhkəməsinin qərarını tam və ya qismən ləğv edə bilər. Bundan əlavə, Məhkəmə mübahisənin qanunla müəyyən edilmiş qaydada arbitraj yolu ilə həll edilə bilməməsi və ya qərarın Respublika Konstitusiyası və ya publik qaydasına zidd olmasını əsas gətirərək belə bir qərar çıxara bilər.

Qanun layihəsi həm xarici, həm də yerli arbitraj qərarlarının tanınması və icrasını tənzimləyir. Xarici arbitraj qərarları hələ də Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınır. Tərəflərdən biri qərarın verildiyi gündən üç ay ərzində yerli arbitraj qərarını könüllü icra etmədikdə, xeyrinə qərar çıxarılmış tərəf arbitraj qərarının məcburi icrasının təmin edilməsi barədə məhkəməyə müraciət edə bilər.

Qanun layihəsi təsdiq edildikdən sonra Mülki Prosessual Məcəlləyə müvafiq dəyişikliklər edildiyi tarixdən qüvvəyə minəcək. Qanun layihəsi qüvvəyə mindiyi tarixədək Ali Məhkəmənin icraatında olan xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası üzrə işlərə şamil edilməyəcək.

* Məlumat hüquqi məsləhət təşkil etmir və bunun üçün nəzərdə tutulmur